# Dövlət Proqramı təqaüdçüləri



Ölkəmizdə ali təhsil sisteminin rəqabət qabiliyyətliliyinin möhkəmləndirilməsi, hərtərəfli inkişaf etmiş insan kapitalının formalaşmasında xaricdə təhsil üzrə Dövlət proqramlarının xüsusi əhəmiyyəti danılmazdır. Bu vaxta qədər yüzlərlə azərbaycanlı gənc xaricdə təhsil arzularını reallaşdıraraq vətənə dönüb və artıq ölkəmizdə müxtəlif sahələrdə uğurla çalışmaqdadırlar. Onlardan biri də Gülsüm Xəlilovadır. Gülsüm Xəlilova orta təhsilini Bakı Məktəb Lisey Kompleksində (MLK) alıb. 2019-cu ildə Azərbaycan Dillər Universitetinin "İngilis dili müəllimliyi" ixtisasına qəbul olub. Qısa müddət sonra isə universitetin Böyük Britaniyanın Essex Universiteti ilə olan əməkdaşlıq çərçivəsində yaradılmış xüsusi təmayüllü qrupda təhsilini davam etdirib. 2022-ci ildə universitet xətti ilə Erasmus+ Mübadilə Proqramının qalibi olub və Serbiyanın Belqrad Universitetində ingilis dili filologiyası üzrə təhsil almaq şansı əldə edib. 2023-cü ildə isə ADU-nu yüksək akademik göstəricilərlə bitirib. O, "gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2028-ci illər üçün Dövlət Proqramı" çərçivəsində 2023-2024-cü illərdə Böyük Britaniyanın London Kral Kollecində (King's College London) "Təhsilin idarə edilməsi" ixtisası üzrə magistratura təhsilini yüksək nəticələrlə tamamlayıb, tədqiqat işi fərqlənmə dərəcəsi ilə qiymətləndirilib. Azərbaycana qayıtdıqdan sonra Elm və Təhsil Nazirliyinin media qurumlarından Təhsil TV MMC-də beynəlxalq əlaqələr üzrə menecer vəzifəsində çalışıb. Bu müddət ərzində elm və təhsil sahəsində beynəlxalq əməkdaşlıqlar və layihələr üzərində işləyib. Təhsilin inkişafı və innovativ yanaşmaların tətbiqi onun əsas maraq dairəsidir. Gülsüm Xəlilova ilə söhbətimizə orta məktəb illərindən başlayırıq.

## "Təhsilin inkişafı və innovativ yanaşmaların tətbiqi əsas maraq dairəmdədir"

### *Gülsüm Xəlilova:*

### "Xaricdə təhsil almaq mənə müasir təhsil sistemlərini daha dərindən anlamaq və bu yanaşmaları tətbiq etmək imkanı yaratdı"

- Orta məktəb illərim maraqlı və dinamik keçib. Həm akademik, həm də sosial sahədə fəal idim. Xüsusilə ingilis dili fənninə böyük maraq göstərirdim. Müəllimlərimin motivasiyaedici yanaşması təhsilə olan sevgimi daha da artırırdı. Hətta ilk tədris təcrübəmi yuxarı siniflərdə oxuyarkən aşağı siniflərdə keçirilən ingilis dili dərslərində əvəzedici müəllim rolunda olub. Bu, sinif rəhbərimin təşəbbüsü ilə baş verdi. Sinifin idarə edilməsi, kurikulum və tədris - bir sözlə, təhsil idarə edilməsi mövzusunda atdığım ilk addım idi. Buna görə də məktəb mühiti və müəllimlərimizin, gələcək fəaliyyət yolumuzu müəyyənləşdirməkdə böyük təsirləri olduğunu düşünürəm. Həm bakalavr, həm də magistr təhsilimi aldığım müddət ərzində müxtəlif yerli və beynəlxalq təşkilatlarda könüllü və iş fəaliyyətim olub. Bakalavr təhsilim müddətində Bakı Amerika Mərkəzi, "AIESEC in Azerbaijan" və "CELT Colleges" kimi müəssisələrdə fəaliyyət göstərmişəm. 2022-ci ildə 10-cu Respublika Elmi Sərvətlər Konfransına təqdim etdiyim məqaləm Azərbaycan Elm Mərkəzinin (AEM) jurnalında dərc olunub.

**"Mənim üçün təhsil yalnız diplom almaq deyil"**

- *Xaricdə təhsil barədə nə vaxtdan düşünməyə başladınız? Kimlərinsə məsləhət və ya tövsiyəsi oldu, yoxsa özünüz qərar verdiniz?*

- Universitet illərimdən inkişaf etmiş dünya ölkələrinin təhsil sistemləri mənim üçün maraq dairəsi idi. Təhsil sistemimizə dünyadakı hansı yenilikləri gətirə və ən əsası, bunları necə tətbiq edə bilərik kimi suallarım formalaşırdı.

Akademik maraqlarımı daha da dərinləşdirmək və fərqli təhsil sistemləri haqqında öyrənmək istəyirdim. Ətrafımdakı müəllimlərim, dostlarım və anam bu yolda mənə, xüsusilə dəstək oldular. Lakin qərarı əsasən özüm verdim, çünki mənim üçün təhsil yalnız diplom almaq deyil, həm də yeni dünyagörüşü və daha çox bacarıq qazanmaq və təhsilimizin daha çox inkişafı üçün onları tətbiq edə bilmək, öyrənmək deməkdir.

- *Dövlət Proqramına qəbul sizin üçün necə keçdi? Necə hazırlaşdınız? Nələrə daha çox fokuslandınız?*

- Dövlət Proqramına müraciət prosesi mənim üçün həm maraqlı, həm də məsuliyyətli bir təcrübə oldu. Bakalavrın son semestrində sənədlərimi hazırlamaq və müraciət prosesini uğurla tamamlamaq üçün çalışırdım. Əsas diqqətimi akademik göstəricilərimə, təcrübələrimə və müsahibə mərhələsinə yönəltdim.

Müsahibə zamanı təhsilə dair baxışlarımı və gələcək hədəflərimi aydın şəkildə ifadə etməyə çalışdım. Xüsusilə, təhsil sahəsində beynəlxalq təcrübəni öyrənmək və bu bilikləri ölkəmizdə tətbiq etmək istəyimi vurğuladım.

**"Dövlət Proqramı çərçivəsində özümüzü daha yaxşı yetişdirə bilərik"**

- *Dövlət Proqramının əhəmiyyəti və həyatınızda rolu barədə nə deyə bilərsiniz?*

- Dövlət Proqramı mənim və mənim kimi minlərlə azərbaycanlı gənclər üçün irəli sürülmüş çox dəyərli bir təşəbbüsdür. Bu proqram sayəsində əldə etdiyim biliklər və təcrübələr yalnız şəxsi inkişafım üçün deyil, həm də ölkəmizin gələcəyinə töhfə vermək məqsədilə indiki və gələcək peşəkar fəaliyyətimə istiqamət verir. Xaricdə təhsil almaq mənə müasir təhsil sistemlərini daha dərindən anlamaq və bu yanaşmaları tətbiq etmək imkanı yaratdı.

Dövlət Proqramı çərçivəsində biz gənclərə təqdim olunan bu möhtəşəm imkanlardan yararlanaraq, həm özümüzü daha yaxşı yetişdirə bilərik, həm də ölkəmizin təhsil sektorunun inkişafına birbaşa töhfə verə bilərik. Təhsil sahəsində qazandığımız yeni biliklər və beynəlxalq təcrübələr Azərbaycanda təhsil metodologiyalarının təkmilləşdirilməsinə və innovativ yanaşmaların tətbiqinə böyük dəstək olacaq. Həmçinin bu proqram bizə yalnız akademik biliklər deyil, eyni zamanda fərqli mədəniyyətlərdən gələn perspektivləri də anlamaq imkanı yaradır. Bu isə öz növbəsində biz gənclərin daha geniş düşünmə və analitik bacarıqlarını inkişaf etdirməsinə kömək edir. Dövlət Proqramı bizə gələcəyin liderləri və mütəxəssisləri olmaq yolunda addımlar atmaq imkanı yaratdı.

- *Xaricdə təhsil olaraq Britaniyanı seçmisiniz? Bu seçim necə formalaşdı?*

- Britaniyanı seçməyim təsadüfi deyildi. Buradakı universitetlər yüksək təhsil keyfiyyəti, tədqiqat yönümlü yanaşması və qlobal akademik mühiti ilə seçilir. Xüsusilə, London Kral Kolleci təhsil siyasəti və idarəetmə sahəsində güclü akademik bazaya malikdir. Bu seçim mənə həm nəzəri biliklər, həm də praktiki təcrübə qazandırdı.

Elmi rəhbərim London Kral Kollecinin təhsil fəlsəfəsi və siyasəti üzrə professoru, bir neçə kitabın müəllifi olan professor Kristofer Vinc idi. Onun təcrübəli rəhbərliyi akademik yazını daha dərindən anlamağıma və fikirlərimi daha aydın ifadə etməyimə kömək etdi. O, mənim üçün yalnız bir elmi rəhbər deyil, eyni zamanda hər addımda mənə ilham verən, yeni baxış bucaqları təqdim edən və düzgün istiqamətə yönləndirən bir mentor oldu. Onun əvəzsiz dəstəyi və təcrübəsi sayəsində dissertasiya prosesimi uğurla tamamladım.

Magistraturada təhsil aldığım dövrdə "Alpadia International Language Schools by Kaplan" beynəlxalq təhsil şirkətində öz ixtisasım üzrə fəaliyyətimi davam etdirdim. Alpadia beynəlxalq təhsil və dil tədrisi sahəsində tanınmış bir təşkilatdır və mənim oradakı təcrübəm müxtəlif ölkələrin təhsil işçiləri və tələbələri ilə işləmək imkanı yaratmaqla yanaşı, müxtəlif mədəniyyətlərdən olan insanlarla ünsiyyət quraraq beynəlxalq təhsil sahəsindəki anlayışlarımı artırmağa və inkişaf etdirməyə kömək etdi.

Bundan əlavə, bir qrup azərbaycanlı gənc olaraq, "King's Azerbaijan Society"ni yaratdıq və komanda şəklində müxtəlif tədbirlər təşkil etdik. Həmin tədbirlərə xarici tələbələri də dəvət edərək Azərbaycanı və mədəni dəyərlərimizi tanıtdıq. Fəaliyyətimiz, həm ölkəmizi təmsil etmək, həm də müxtəlif mədəniyyətlər arasında körpü qurmaq məqsədini güdürdü.

**"Dərslərimiz interaktiv tədris metodları və tədqiqat yönümlü yanaşmalar üzərində qurulurdu"**

- *Britaniya ali təhsilindən, xüsusən də təhsil ixtisası üzrə nə kimi maraqlı yenilik və təcrübələri ölkəmizdə görmək istərdiniz?*

- Britaniyada ali təhsil sistemi, xüsusilə təhsil sahəsi üzrə, innovativ yanaşmaları və praktik təcrübələri ilə seçilir. Bu sistemin ən mühüm xüsusiyyətlərindən biri təhsilin fərdiləşdirilməsi və tələbələrin tənqidi düşüncə bacarıqlarının inkişafına xüsusi önəm verilməsidir. Dərslərimiz yalnız nəzəri biliklərin ötürülməsi ilə məhdudlaşmır, tələbə-müəllim müzakirələri, interaktiv tədris metodları və tədqiqat yönümlü yanaşmalar üzərində qurulur. Bu, tələbələrin fikirlərini sərbəst və əsaslandırılmış şəkildə ifadə etmələrinə, müxtəlif mövzulara daha analitik yanaşmalarına imkan yaradır.

Bu təcrübənin Azərbaycanda da geniş şəkildə tətbiq olunması vacibdir. Təhsil sistemində daha fəal və tələbə yönümlü metodların istifadəsi, yalnız biliklərin mənimsənilməsi ilə kifayətlənməyərək, müstəqil düşünmə və yeni ideyalar irəli sürmə bacarıqlarını inkişaf etdirə bilər. Eyni zamanda, məktəblərlə universitetlər arasında əməkdaşlıq gücləndirilməli, nəzəri biliklər praktiki təcrübə ilə tamamlanmalıdır.

Təhsil müəssisələri arasında sıx əlaqələrin qurulması və təcrübəli mütəxəssislərin tədris prosesinə cəlb olunması gələcək mütəxəssislərin daha hazırlıqlı yetişməsinə töhfə verəcək. Britaniya təhsil sistemindəki bu yanaşmaların ölkəmizdə tətbiqi təhsilin keyfiyyətini yüksəltməklə yanaşı, tələbələrin müasir əmək bazarının tələblərinə daha yaxşı uyğunlaşmasına da şərait yaradacaq.

**"Təhsilin idarə edilməsi cəmiyyətin inkişafına yön verən strateji bir sahədir"**

- *Təhsilin idarəedilməsi ixtisası üzrə təhsil aldınız. Bu, sizin üçün nə dərəcədə maraqlı sahədir?*

- Təhsilin idarə edilməsi mənim üçün sadəcə bir ixtisas deyil, eyni zamanda bir missiyadır. Təhsil sistemi yalnız bilik ötürməkdən ibarət deyil, o, cəmiyyətin inkişafına yön verən strateji bir sahədir. Bu sahədə effektiv idarəetmə, düzgün strategiyaların qurulması və yeni metodologiyaların tətbiqi təhsilin keyfiyyətini artırmaq üçün vacibdir.

Mənim əsas maraq dairəmə təhsil siyasətləri, müəllimlərin peşəkar inkişafı və innovativ tədris üsulları daxildir. Təhsil sektorunda idarəetmə proseslərinin düzgün təşkili yalnız müasir pedaqoji yanaşmaların tətbiqi ilə kifayətlənmir, eyni zamanda, təhsil sisteminin davamlı inkişafını və strateji qərarların daha effektiv şəkildə həyata keçirilməsini tələb edir.

Bu sahədə əldə etdiyim biliklər və təcrübələr mənə təhsilin idarə edilməsindəki problemlərə müasir həll yolları tapmaq və ölkəmizin təhsil sisteminin gücləndirilməsinə töhfə vermək imkanı yaradır. Təhsilin idarə edilməsi sadəcə akademik bir istiqamət deyil, həm də gələcəyin formalaşdırılmasında əsas rol oynayan bir sahədir.

**"Əsas hədəfim Azərbaycanın təhsil sistemində fəal rol oynamaqdır"**

- *Qarşıdakı illər üçün nə kimi hədəfləriniz var?*

- Qarşıdakı illər üçün əsas hədəfim Azərbaycanın təhsil sistemində innovativ və dayanıqlı dəyişikliklərin tətbiqində fəal rol oynamaqdır. Təhsil siyasətlərinin və tədris metodologiyalarının təkmilləşdirilməsi, müəllimlərin peşəkar inkişafı və təhsil resurslarının daha effektiv istifadəsi ilə bağlı təşəbbüs və tədbirlərdə yaxından iştirak edərək, təhsil sisteminin hər bir tələbənin ehtiyaclarını qarşılayan bir sahə kimi formalaşmasına töhfə vermək istəyirəm.

Gələcəkdə bu hədəflərə çatmaqla, həm şəxsi inkişafımı davam etdirmək, həm də Azərbaycan təhsilinin beynəlxalq səviyyədə tanınan və keyfiyyətli bir sistemə çevrilməsinə öz töhfəmi vermək niyyətindəyəm.

## Dövlət Proqramı məzununun uğurlu tədqiqatı



### Azərbaycanlı gənc yenilikçi və perspektivli tədqiqatlarına görə iki yüz min ABŞ dolları qazanıb

Bakı Avropa Liseyinin 2009-cu il məzunu Dayaq Şeyxkərimli 2025-ci il üzrə kimyaterapiya preparatlarını birbaşa xərçəng hüceyrələrinə çatdırmaq üçün istifadə oluna biləcək yenilikçi və perspektivli tədqiqatlarına görə "NRC HL Holmes" mükafatına layiq görülüb.

İki ildən bir verilən 200000 ABŞ dolları məbləğində olan mükafat doktor D.Şeyxkərimliyə iki il ərzində insan viruslarının xarici təbəqələrini əhatə edən bütün mövcud zülalların toxuma spesifikliyini xəritələndirmək və onların orqanizmdəki yerini izləmək üçün işlərini davam etdirməyə imkan verəcək.

Şeyxkərimli Dayaq Hikmət oğlu 2009-cu ildə Bakı Avropa Liseyini fərqlənmə attestatı ilə bitirib. 2010-cu ildə Amerika Birləşmiş Ştatlarının Vaşinqton, Nyu-York və Keyz Vestern universitetlərindən, o cümlədən Kanadanın Ottava, Vaterlo, Britiş Kolumbiya və Toronto universitetlərindən qəbul alıb. "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində 2010-2014-cü illərdə Toronto Universitetində molekulyar genetika və biotexnologiya ixtisasları üzrə bakalavr və magistr dərəcəsi alıb və "Sony Tədqiqat Mükafatı", MITACS təqaüdü kimi mükafatlar və Osakadakı İnsan Metavers Təbabəti Əsaslı Tədqiqat İnstitutunda (PRIMe) beyin əlaqələrinin xəritələndirilməsi üçün genetik ştrix-kodların işlənib hazırlanması üzrə təqaüd də daxil olmaqla çoxsaylı mükafatlara layiq görülüb.

Dayaq Şeyxkərimli bu tədqiqatı Britaniya Kolumbiyası Universitetinin Biotibbi Mühəndislik Məktəbində (SBME) aparacaq. O, 2024-cü ilin aprel ayından etibarən həmin məktəbdə doktorantura sonrası ("post-doc") elmi işçi kimi SBME professoru və Sintetik Biologiya üzrə Kanada Tədqiqatları kafedrasının rəhbəri doktor Nozomu Yachinin laboratoriyasında çalışır.

Doktor Şeyxkərimli bu sahədəki qabaqcıl tədqiqatçıların daxil olduğu multidisiplinar qrupla əməkdaşlıq qurub. Layihəyə rəhbərlik edərək, o, Toronto Universitetindən doktor Daniel Şramek və doktor Mikko Taipale, Münhendəki Helmholtz Universitetindən doktor Əli Ərtürk, Juntendo Universitetindən doktor Etsuo Susaki (PhD, MD), Tokio Universitetindən doktor Hiroki Ueda və digər mütəxəssislərin resurs və təcrübələrindən faydalanacaq.

D.Şeyxkərimli molekulyar genetika üzrə doktorluq dissertasiyasını doktor Frederik Rothun rəhbərliyi altında müdafiə edib. Dissertasiya müddətində o, virus və insan zülalları da daxil olmaqla, milyonlarla cüt zülalın qarşılıqlı təsirlərini xəritələndirmək üçün texnologiya hazırlayıb.

**Səhifəni hazırladı: Oruc MUSTAFAYEV**